# GÖYƏRÇİN

İSSN-0207-4710
2006-cı il
4



# NAĞIL VAXTI

## XORUZ VƏ TOYUQ

*Alban nağılı*

Biri var idi, biri yox idi, bir xoruz və bir toyuq var idi. Bir dəfə onlar gəzməyə çıxdılar. Yolda bərk leysana düşdülər. Qaranlıqlaşdığı üçün daldalanmağa yer axtardılar. Qarşılarına bir dəyirman çıxdı. Qapını döyüb gecələməyə yer istədilər.

Dəyirmançı soruşdu:

-Kimdi?

-Xoruz ilə toyuq. Bizi içəri burax. Toyuq yumurtlayanda onu sənə verərik. Dəyirmançı onları içəri buraxmadı. Dedi ki, mənə heç nə lazım deyil.

Xoruz və toyuq yollarına davam etdilər. Çayın qırağında başqa bir dəyirmana rast gəldilər. Qapını döyüb gecələməyə yer istədilər. Dedilər ki, bizi içəri buraxsan, əvəzində sənə yumurta verərik.

Dəyirmançı onları qovdu.

Xoruzla toyuq yollarına davam etdilər. Çayın qırağında üçüncü bir dəyirmana rast gəldilər.

Qapını döyüb dəyirmançıya yalvardılar:

-Biz yağışda bərk islanmışıq. Bizə gecələməyə yer versən, əvəzində sənə yumurta verərik.

Bu dəyirmançı xeyirxah adam idi. Qapını açıb xoruzla toyuğu içəri buraxdı. Sobanı qaladı ki, onlar tüklərini qurutsunlar. Sonra toyuqla xoruza dən səpib, özü yatmağa getdi.

Səhərə yaxın xoruzla toyuq bir-birlərinə yavaşca dedilər:

-Nə üçün bu kişiyə yumurta verək? Onlar qapını açıb bayıra çıxdılar.

Dəyirmançı yuxudan oyananda qonaqlarını səslədi. Ancaq onlardan səs çıxmadı. Fikirləşdi ki, yəqin toyuq samanlığa girib yumurtlamaq istəyir. Xoruz isə onun keşiyini çəkir.

Dəyirmançı toyuqla xoruzun çıxıb qaçdığını biləndə qərara aldı ki, kəndə gedib onlardan vəd etdikləri yumurtanı alsın.

Dəyirmançının yaxınlaşdığını görən xoruzla toyuq yumurtalarının hamısını sındırıb küzəyə doldurdular. Ocağın üstünə ovulmuş kömür tökdülər. Dəsmalın üstünə isə iynə taxıb gizləndilər.

Hava soyuq olduğundan dəyirmançı ocağı üfürdü ki, yandırsın. Kömürün hamısı onun üzünə-gözünə dağıldı. Dəyirmançı üzünü yudu. Əl-üzünü dəsmalla qurulamaq istəyəndə iynələr ətinə batdı.

Aldadıldığını görən dəyirmançı kor-peşiman evinə qayıtdı.

Bax o vaxtdan heç kəs fırıldaqçı toyuq ilə xoruzun üzünə qapı açmır.

*Tərcümə edib işləyəni R. Əliyev*



Rafiq YUSİFOĞLU

# DOVŞANLA SÖHBƏT



Dərə yuxarı qalxırdım. Birdən qarşıma bir dovşan çıxdı. Mən ondan soruşdum:

- Ay dovşan, ay dovşan,qulaqların niyə belə uzundu?

- Onlar gödək olsa, uzaqdan gələn səsləri yaxşı eşidə bilmərəm. Təhlükə başımın üstünü alar.

- Qulağın uzun olduğu üçün farslar sənə "xərguş" deyirlər. Xər eşşək, guş isə qulaq deməkdir.

-Yaxşı ki, eşşəyə qulaq sarıdan oxşamışam. Yerişim də onun yerişi kimi olsaydı, işim çoxdan bitmişdi.

- Bəs quyryğun niyə belə gödəkdi?

- Əgər o, uzun olsa, asanlıqla məni arxadan qovan düşmənimin əlinə keçə bilər. Quyruq da ki, ələ keçdi, qurtardı. Bir də görərsən ki, boğazın da əldədir…

- Bəs qaçanda niyə tullana-tullana qaçırsan?

-Qorxu məni az qalır ki, quş eləsin. Qanadım olmadığından bir az uçub yerə düşür, yenidən qabağa tullanıram.

Bir sual da vermək istədim. Elə bu vaxt dovşanın qulaqları şəkləndi. O, sözümü yarımçıq qoyub kolluğa tərəf götürüldü…





# İKİ QAPILI YUVA

Uşaqlar Çardaxlı düzünə böyürtikən yığmağa getmişdilər. Zəmi ilə pöhrəliyin arasındakı kolların üstü dolu idi. Dənəş-dənəş böyürtkənlər qapqara qaralmışdı. Elə bil ki, bu qara giləmeyvələr kolun gözlərinin giləsi idi, qara giləsi.

Hərənin başı özünə qarışmışdı. Aqşin uşaqlardan ayrılıb kolların arasıyla gedən balaca cığıra düşdü. Fikirləşdi ki, yəqin qabaqda daha çox böyürtkən olar. Birdən onun gözləri torpaqdakı dərin dəliyə sataşdı. Əvvəlcə qorxdu. Fikirləşdi ki, bəlkə bu, ilan yuvasıdı.Sonra öz-özünə toxtaqlıq verdi:

-Heç bu boyda ilan yuvası olar?!

O, cığırla geriyə qaçıb, həyəcanla dostlarını səslədi:

-Ay uşaqlar, bura gəlin, bura gəlin!

Uşaqlar gəldilir. Aqşin gördüyü deşiyi onlara göstərdi.

Samir dedi:

-Yəqin ki, ilan yuvasıdı.

Yusif onun sözünə düzəliş verdi:

-İlan yox, əjdaha yuvası. Heç bu yoğunluqda ilan olar?!

Tural şəhərdən gələn əmisi uşaqlarının sözlərinə o ki var güldü. Başa saldı ki, bu, tülkü yuvasıdır.

O, xeyli çırpı yığdı, tülkü yuvasının ağzında ocaq qaladı ki, tüstü yuvaya dolsun.

Aqşin qışqırdı:

-Burda da bir deşik var.

Elə bu zaman onun göstərdiyi deşikdən bir tülkü çıxıb pöhrəliyə sarı qaçdı.Uşaqlar çığırışdılar.

Bir azdan tülkü çıxan deşikdən tüstü çıxmağa başladı. Sən demə yuvanın iki qapısı varmış. Bu qapıdan tüstü gəldiyini görən tülkü özünü boğulmaqdan xilas eləmək üçün o biri qapıdan çıxıb qaçıbmış.

Rəssam Afər

